*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır     11 may 2019-cu il   № 36 (2353)     Qiyməti 30 qəpik


# Prezident İlham Əliyev Fəxri xiyabanda ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib



Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü günüdür.

Yaşarı dünyasından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan xalqımız qarşısındakı xidmətləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan bir fikirdir. Zaman onu da sübut edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin tərcümeyi-halıdır. Heydər Əliyevin tərcümeyi-halı isə Azərbaycan tarixidir. Çünki onun hakimiyyətdə olduğu illərdə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. O, Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq da öyünür.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olub", - deyən Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya məmləkətləri sırasında layiqli yerə çıxarıb. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasətçilərindən biri idi. Bu səbəbdən də "Azərbaycan sənin üçün kiçikdir, sən ittifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi, Vətəninə döndü. Bu qayıdış isə daha möhtəşəm oldu. Ümidlə, inamla yolunu gözləyən xalqının arzusu ilə yenidən hakimiyyətə gəldi. Milyonları öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Sözünün qüdrəti ilə hər kəsi inandırdı. Əməlləri ilə sözünü gerçəyə çevirdi.

Azərbaycan dövlət quruculuğu prosesini sürətlə keçdi. Çünki ulu öndər Heydər Əliyevin yaratdığı təməl prinsiplər düzgün yerinə yetirilmişdi. Dahi siyasi xadimin xidmətləri sayəsində dövlətçilik, azərbaycançılıq, dünyəvilik, müasirlik kimi ideyalar cəmiyyətin dünyagörüşü sisteminin ayrılmaz hissəsinə çevrildi, müasir Azərbaycanın mövcudluğunun və inkişafının ideya əsasını təşkil etdi. Heydər Əliyev öz fəaliyyəti ilə Azərbaycanda demokratik cəmiyyətə keçid mexanizmini yaratdı, müstəqil və demokratik cəmiyyət formalaşdırmaq kimi tarixi missiyanın öhdəsindən uğurla gəldi. Ulu Öndər güclü dövlət, səmərəli iqtisadiyyat və azad insan amillərinə əsaslanan konsepsiyası ilə müstəqil Azərbaycanın tarixində qızıl səhifələr yazdı. Heydər Əliyevin quruculuq salnaməsi azərbaycanlıların həyatına birdəfəlik daxil oldu. Onun Azərbaycana rəhbərlik illəri milli intibah dövrü kimi əbədiləşdi.

Meydana silahsız gələn bu insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi, ölkəmizdə böyük neft erasının əsasını qoydu. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlu güclü dövlətçilik məktəbi də yaratdı. Heydər Əliyev ən mürəkkəb ziddiyyətli tarixi proseslərin girdabından bacarıqla baş çıxaran, ən çətin vəziyyətlərdə belə təmkinini itirməyən və dünyadakı geosiyasi dəyişiklikləri realistcəsinə qiymətləndirib mənsub olduğu xalqın, ölkəsinin çıxarlarını praqmatik ağılla və təcrübəsi ilə dəqiqliklə hesablayan bir lider idi.

Xalqımızın xilaskar oğlunun doğum günündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Ümummilli Liderin məzarını ziyarət etmək üçün Fəxri xiyabana gəldilər.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla andı.

Azərbaycan Respublikasının Dövlət himni səsləndi.

Sonra dövlətimizin başçısı və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Görkəmli dövlət xadimi Əziz Əliyevin və tanınmış həkim-alim Tamerlan Əliyevin məzarları üzərinə də gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət olunması mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, nazirlər, komitə və şirkət rəhbərləri, Milli Məclisin deputatları iştirak ediblər.

**AZƏRTAC**

# Prezident İlham Əliyev 9 May Qələbə Günü münasibəti ilə Bakıda keçirilən mərasimdə iştirak edib

*İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə mayın 9-da Bakıda təntənəli mərasim keçirilib.*

*AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.*





Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər. Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır. İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib.

Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz Ulu Öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may - Qələbə Günü qeyd olunur. Ümummilli Lider müharibə veteranlarını "Xalqımızın qızıl fondu" adlandırırdı. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.

Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinin daha da möhkəmləndirilməsi ilə bağlı sərəncamlar imzalaması artıq ənənə halı alıb. Azərbaycan Prezidentinin 2019-cu il 23 aprel tarixli Sərəncamı ilə İkinci Dünya müharibəsinin iştirakçılarına 1000 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Respublikamızda müharibə veteranlarına dövlət qayğısının artırılması ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 may tarixli Sərəncamına əsasən isə Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının maddi-texniki bazasının gücləndirilməsi, habelə Təşkilatın fəaliyyəti ilə əlaqədar cari məsələlərin həlli və nəzərdə tutulan tədbirlərin həyata keçirilməsinin təmin olunması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Veteranlar Təşkilatına 300 min manat ayrılıb. Bütün bunlar bir daha təsdiqləyir ki, müharibə veteranlarına hərtərəfli qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin başlıca prioritetlərindən biridir.

İkinci Dünya müharibəsinin veteranları xalqımızın fəxridir. Onların müharibə illərində göstərdiyi qəhrəmanlıq bu gün də böyük hörmətlə xatırlanır, həlak olan soydaşlarımızın xatirəsi ehtiramla yad olunur. Böyük Qələbənin qazanılmasından 74 il keçsə də, İkinci Dünya müharibəsində misilsiz şücaət göstərmiş xalqımızın xidmətləri heç vaxt öz əhəmiyyətini itirmir.



Prezident, Ali Baş Komandan İlham Əliyev iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoydu, İkinci Dünya müharibəsində misilsiz qəhrəmanlıqlar göstərən cəsur sərkərdənin xatirəsini ehtiramla yad etdi.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Böyük Vətən müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdilər.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Prezident, Ali Baş Komandan İlham Əliyevin qarşısından keçdi.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İkinci Dünya müharibəsinin iştirakçısı, partizan, Hollandiya Müqavimət Hərəkatının görkəmli nümayəndələrindən biri, Niderlandın azərbaycanlı Milli Qəhrəmanı Məmməd Məmmədovun ailə üzvləri və Oistervijk şəhərinin meri Hans Janssen ilə görüşdülər.

Sonra dövlətimizin başçısı və xanımı iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri, yaxın qohumları ilə görüşdülər, Qələbə günü münasibətilə onları təbrik etdilər.

* * *

Mərasimdə Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb



Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyəti, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

# Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində veteranlarla görüş keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, 1941-1945-ci illər müharibəsinə 700 minə yaxın azərbaycanlı yollanıb, onların 450 mini və ya 65 faizi orden və medallarla təltif olunub, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb.*

Bu faktlar Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində Naxçıvan Qarnizonunun şəxsi heyəti ilə alman faşizmi üzərində Qələbənin 74-cü ildönümü münasibətilə keçirilən tədbirdə səsləndirilib.

Əvvəlcə İkinci Dünya müharibəsində həlak olan soydaşlarımızın, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Zaur Həmidov tədbirin məqsəd və mahiyyəti barədə iştirakçılara ətraflı məlumat verib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının müavini, general-mayor Elman Orucov "Alman faşizmi üzərində Qələbədə Azərbaycan xalqının rolu və qəhrəmanlıq nümunələri" mövzusunda çıxış edərək qeyd edib ki, 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş oğul və qızlarımızın tarixi şücaətlərini, həmçinin arxa cəbhədə fədakarlıqla çalışanların xidmətlərini Azərbaycan xalqı heç vaxt unutmayacaqdır. Bugünkü və gələcək nəsil üçün nümunə olan həmin qəhrəmanların şərəfli ömür yolu bir məktəbdir.

Naxçıvan Muxtar Respublikası Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranları Şurasının sədri Firudin Süleymanovun, Naxçıvan Şəhər Veteranlar Şurasının sədri, əmək veteranı Davud Süleymanovun, Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələri Naxçıvan Muxtar Respublika Təşkilatının Naxçıvan Şəhər Şöbəsinin sədri Zahid Cəfərovun və müharibə veteranı Abdulla Səfərovun çıxışları dinlənilib.

Tədbirdə müharibə veteranlarından Vəli Qasımov, Cəfər Əliyev, Abdulla Səfərov arxa cəbhə veteranı Sultan İsmayılova və digərlərinə fəxri fərmanlar təqdim edilib.

Sonda iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanova həsr olunmuş "Mən sizi dünyalar qədər sevirdim" bədii filmi nümayiş olunub.




# "Döyüş hazırlığımız yüksəkdir"

*Ümummilli lider Heydər Əliyevin formalaşdırdığı ordu quruculuğu ölkə başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ordumuzun bütün bölmələrində yüksək sosial-məişət şəraiti yaradılıb, ən son silah və texnikalarla təchiz edilib. Bütün hərbi hissələr müasir standartlara cavab verir. Hərbi qulluqçuların ərzaq, qida, geyim təminatı da lazımi səviyyədədir. Bunlarla yanaşı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı da yüksəkdir. Bunların hamısı isə döyüş hazırlığının yüksək səviyyədə təmin olunmasına birbaşa təsir edən amillərdir. Son illərdə hərbi potensialımızın təkmilləşdirilməsinin nəticəsidir ki, Azərbaycan Ordusu dünyanın ən güclü orduları sırasındadır. Beynəlxalq hərbi ekspertlərin də etiraf etdikləri kimi, müdafiə qüdrəti artan Azərbaycan Ordusunun gücünü Aprel döyüşləri və Günnüt zəfəri də təsdiqlədi.*

Uğurlu islahatların nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionun ən güclüsüdür. İstər keçirilən irimiqyaslı təlimlərdə, istərsə də Beynəlxalq Hərb oyunlarında və digər tədbirlərdə hərbçilərimizin ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi, onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarıqlarının yüksək səviyyədə olduğunu göstərir.

Ordumuzun bütün bölmələrində döyüş hazırlığının artırılması istiqamətində işlər davam etdirilir. Atəş, taktiki, fiziki, ictimai-siyasi və digər məşğələlər səmərəli təşkil olunur. Əsgəri xidmətə gələn gənclər bacarıqlı və hər an döyüşə hazır olan əsgərlər kimi formalaşırlar.

Yazın füsunkar mənzərəsi "N" hərbi hissəsinin ərazisində də özünü göstərir. Yamyaşıl otların arasından boy göstərən lalələr insanı təbiətin möcüzəsinə bir daha heyran qoyur. Dərs keçən şəxsi heyətin həvəsi, yüksək əhval-ruhiyyəsi bu mənzərəni daha da ürəkaçan edir. Zabit Fuad Məhərrəmov taktiki hazırlıqdan dərs keçdiyi şəxsi heyətə hücum zamanı hansı fəaliyyətlər yerinə yetirildiyini, kimin hansı cinahda, hansı aralıqda hərəkət etdiyini, hücumun mərhələlərini və digər tapşırıqları əvvəlcə əyani olaraq çatdırır. Şəxsi heyət tapşırıqları praktik olaraq icra edir.

Praktik məşqi izləyərkən zabitin məqsədinə çatdığı görünür. Əsgərlər zəncirvari açılma, mövqe tutma, manevr etmə, düşmən mövqelərinə soxulma və digər tapşırıqların öhdəsindən bacarıqla gəlirlər. Hər bir əsgər öz ixtisası üzrə tələb olunan fəaliyyəti dəqiqliklə yerinə yetirir.

Zabitin çöhrəsinə xoş təbəssüm çökür. Sevinir, qürurlanır, təşəkkür edir. "Seçdiyimiz bu şərəfli peşədə istər zabitin, istərsə də əsgərin bir məqsədi var - torpaqlarımızı düşməndən azad etmək. Düzdür, biz sülh tərəfdarıyıq. Lakin müharibəyə də hər an hazırıq. Hərb yolu ilə torpaqlarımızı azad etmək üçün hücum əmri gözləyirik. Hazırlığımızı gündən-günə daha da artırırıq. Keçirilən dərsin səmərəli olduğunu görəndə zabit kimi sevinirəm ki, vəzifələrimin öhdəsindən uğurla gəlirəm, həm də bir vətəndaş kimi cəmiyyətimizdə belə vətənpərvər gənclərin formalaşdığına görə qürurlanıram. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində mənim kimi yüzlərlə kursanta bilik və bacarıq öyrədən komandirlərimizə minnətdaram. Bu gün onların öyrətdiyi biliklərdən faydalanaraq məşğələni təşkil edirik və bəhrəsini də görürük. Əsgərlər hər məşğələdə fəal iştirak edir, verilən tapşırıqları həvəslə yerinə yetirirlər. Bu da bir komandir kimi məni daha da ruhlandırır."



Fasilədə bir neçə əsgərlə də həmsöhbət oldum. Əsgərlər Baycan Ağalarov, Azər Qasımov, İlqar Nuriyev və digərləri xidmətlərinin uğurla davam etdiyini bildirdilər. Bütün təminatlarının qaydasında olduğunu, Vətənə layiqli xidmət etmələri üçün hər cür şəraitin yaradıldığını dedilər. "Yaradılan gözəl şəraitlə yanaşı, diqqət və qayğı da yüksəkdir. Bu da mənəvi-psixoloji hazırlığımıza müsbət təsir edir. Verilən tapşırıqlara məsuliyyətlə əməl edib, döyüş hazırlığımızı daim yüksək tuturuq. Bütün məşğələlər belə maraqlı və səmərəli olur. Bu dərslərdə silahlardan istifadə etməyi, döyüş qabiliyyətini və taktikasını öyrənirik. Bütün dərsləri dərindən mənimsəyir, həm hücumda, həm də müdafiədə üzərimizə hansı vəzifələr düşdüyünü yaxşı bilirik. Bir sözlə, döyüş hazırlığımız yüksəkdir, biz istənilən döyüşə hazırıq!"

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə Azərbaycan Ordusunda silsilə tədbirlər keçirildi

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibəti ilə Müdafiə Nazirliyinin tabeliyində olan birlik, birləşmə, hərbi hissə, xüsusi təyinatlı hərbi təhsil müəssisələrində silsilə tədbirlər keçirildi. Müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, şəxsi heyət Heydər Əliyev mərkəzlərini, muzeyləri və abidələri ziyarət etdi.*

*Keçirilən tədbirlərdə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan həmvətənlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.*



Müasir müstəqil Azərbaycanın memarı və qurucusu, dünya şöhrətli siyasi xadim Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü Fəxri xiyabanda ümumxalq ziyarəti ilə qeyd edildi. İzdiham xalqımızın ulu öndər Heydər Əliyevə tükənməz məhəbbətinin daha bir parlaq təzahürüdür.

Mayın 10-da səhər tezdən Fəxri xiyabana üz tutan hər kəs ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrdə Vətəni və xalqı qarşısında misilsiz xidmətlərini, liderlik və xilaskarlıq missiyasını axıradək şərəflə yerinə yetirdiyini yaxşı xatırlayır. Ümummilli Liderin Azərbaycan naminə gördüyü işlər ona tarixdə və yaddaşlarda əbədiyaşarlıq qazandırıb.

Heydər Əliyev böyük azərbaycanlı idi və qürurla deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Heydər Əliyev Azərbaycanın dövlət müstəqilliyinin dönməzliyini və əbədiliyini təmin etdi. Dahi şəxsiyyətin uyuduğu Fəxri xiyaban xalqımızın müqəddəs ziyarətgahına çevrilib.

Bu may səhəri də qədirbilən insanlar müasir tariximizin 35 illik çox mühüm bir dövründə silinməz iz qoymuş böyük şəxsiyyətin xatirəsinə ehtiramlarını bildirmək üçün Fəxri xiyabana axışırdı.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycan dinamik inkişaf yoluna qədəm qoyub, dünyəvi, demokratik və hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin formalaşması prosesi başlayıb. Milli-mənəvi dəyərlər dirçəlib, müasir dövrün məzmununa uyğun multikultural və tolerant ənənələr bərqərar olub. Məhz buna görədir ki, Azərbaycanda yaşayan müxtəlif millətlərin və dinlərin nümayəndələri Fəxri xiyabana gələrək dahi şəxsiyyət və bəşəri insan olan Heydər Əliyevin xatirəsinə öz ehtiramlarını bildirirlər.

Mayın 10-da Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanı ziyarət etdi.

Ulu Öndərin məzarı önünə əklil və gül dəstələri qoyulub, xatirəsi hörmət və ehtiramla yad edildi.

* * *

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin təşkilatçılığı ilə 2019-cu ilin Elmi iş planına uyğun olaraq, Ulu Öndərin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Azərbaycanın daxili və xarici təhlükəsizliyinin təminatında Heydər Əliyevin rolu" adlı elmi-praktik konfrans keçirilib.

Tədbirdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin zabit, professor və müəllim heyəti ilə yanaşı, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Silahlı Qüvvələrin Hərbi Akademiyasının nümayəndələri də iştirak etdilər.

Konfrans iştirakçıları hərbi məktəbin muzeyi, İdeoloji mərkəzi, eləcə də təhsil müəssisəsində çap olunan tədris vəsaitlərinin sərgisi ilə tanış oldular.

Konfransda xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı məruzələr dinlənildi.

Sonda ulu öndər Heydər Əliyevin abidəsi önündə xatirə şəkli çəkdirildi.

* * *

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2019-cu il



üçün təsdiq etdiyi plana əsasən, "N" hərbi hissəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Dahi Şəxsiyyət, Əbədiyaşar Komandan" adlı tədbir keçirildi.

Tədbirdə çıxış edən polkovnik Mehman Kərimov bildirdi ki, Ulu Öndərin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar bir sıra kütləvi tədbirlərin keçirilməsinə start verilib. Zabit Heydər Əliyev siyasətinin Azərbaycanın hər sahəsində olduğu kimi, ordu quruculuğunda mühüm baza olduğunu da qeyd etdi. "Xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəliş məhz Heydər Əliyevin adı ilə əlaqəlidir. Əbədiyaşar Komandan müxtəlif dövrlərdə Azərbaycana rəhbərlik edərkən ordu quruculuğu, hərbi kadrların hazırlığı məsələsinə hər zaman xüsusi diqqət yetirib. Sovet dövründə Heydər Əliyevi ən çox narahat edən məsələlərdən biri də hərbi kadrların çox az olması idi. Ümummilli lider Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə ordu quruculuğu, milli hərbi kadrların hazırlığı məsələsi daim ön plana çəkilib. O, 1971-ci ildə böyük səylər nəticəsində general Cəmşid Naxçıvanski adına ibtidai hərbi məktəbin (indi Hərbi lisey) yaradılmasına nail oldu. Bu gün həmin liseyin məzunları arasında yüksək rütbəli zabitlər, generallar var. Heydər Əliyevin SSRİ dövründəki ordu quruculuğu siyasəti müstəqillik qazandıqdan sonra da öz layiqli bəhrəsini verdi. Ulu Öndərin uzaqgörən siyasəti sayəsində həyata keçirilən islahatlar nəticəsində orduda vahid komandanlıq yaradıldı, mərkəzləşdirilmiş maddi-texniki təminat əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salındı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldildi. Ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunlar qəbul edildi, Silahlı Qüvvələrin mükəmməl qanunvericilik bazası yaradılaraq qısa vaxtda Azərbaycan Ordusunun formalaşmasına nail olundu".

Zabit Heydər Əliyev siyasi kursunun hazırda uğurla davam etdirildiyini də bildirdi. "Azərbaycan Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev Ulu Öndərin ideyalarını layiqincə davam etdirərək Azərbaycan Ordusunun ən müasir silah və hərbi texnikalarla təchiz edilməsinə, möhkəm nizam-intizama, yüksək döyüş ruhu olan bir ordu yaradılmasına nail olub. Bu gün regionun ən qüdrətli ordusu olan Azərbaycan Ordusu bir sıra ölkələrdə həyata keçirilən sülhməramlı əməliyyatlarda da iştirak edir və böyük müvəffəqiyyətlər qazanır. Tam əminliklə deyə bilərik ki, regionun ən qüdrətli ordusu - Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edilməsi üçün Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməyə hazırdır, buna tam qadirdir."



Sonra Azərbaycanın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən qısametrajlı sənədli film nümayiş olundu. Hərbi hissənin yaradıcı kollektivinin və ansamblının iştirakı ilə bədii hissə oldu.

* * *

Heydər Əliyev kimi böyük tarixi şəxsiyyətlər heç zaman unudulmur, həmişə ehtiramla yad edilir. Belə tarixi şəxsiyyətlərin xalqı üçün, dövləti üçün gördüyü möhtəşəm işlər, müəyyən məqamda, tarixin axarını da dəyişə bilir. Bir bayatıda deyildiyi kimi, tikdim ki, izim qala fikri ulu öndər Heydər Əliyevin Azərbaycan naminə gördüyü işlərin mahiyyətinə işıq salır.

Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra respublikada siyasi vəziyyət gərginləşmişdi. Hakimiyyət boşluğu, səriştəsizlik, müəyyən ambisiyalar real dövlət çevrilişi vəziyyəti yaratmış, milli qarşıdurmaya səbəb olmuşdu. Xalq ciddi təkidlə ulu öndər Heydər Əliyevi hakimiyyətə dəvət etdi.

Böyük dövlətçilik təcrübəsinə malik olan tarixi şəxsiyyət Heydər Əliyev hakimiyyətə qayıtdı. Çox qısa müddətdə milli qarşıdurmanı aradan qaldırdı, respublikada dövlət çevrilişinin qarşısı alındı, dövlətçilik üçün yaranmış çox ciddi təhlükə sovuşdu...

Ulu öndər Heydər Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq qısa müddətdə respublikanın iqtisadi inkişafını təmin edən beynəlxalq müqavilələr imzalandı. Bu, respublikada digər sahələrin, o cümlədən ordunun inkişafına optimal şərait yaratdı.

Ulu Öndər ordu quruculuğunda əsaslı islahatlar aparılması istiqamətində müvafiq sənədlər imzaladı. O dövrdə yaradılmış yerli müdafiə batalyonları buraxıldı, orduda vahid komandanlıq təmin edildi, bacarıqlı zabitlər müvafiq vəzifələrə təyin edildi. Bütün bunlar ordu quruculuğunda əsaslı dönüş yaradılmasında vasitə oldu.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan Heydər Əliyevin ön xətdə, səngərlərdə əsgər və zabitlərlə söhbətləri, onlara tövsiyələr verməsi şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksəldilməsində əsaslı rol oynadı. Ulu Öndərin xüsusi təyinatlı məktəblərdə şəxsi heyətlə görüşləri də bu baxımdan əhəmiyyətli oldu.

Ulu Öndərin bir kəlamı hər bir Azərbaycan vətəndaşının yaşam fəlsəfəsidir: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam".

Ümummilli Liderimizin azərbaycançılıq ideologiyası müstəqil Azərbaycanın inkişafında müstəsna rol oynamaqdadır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin ideologiyasını uğurla davam etdirir, bu ideologiya Azərbaycanı daha qüdrətli edəcəkdir.

**"Azərbaycan Ordusu"**

# “Yolumuz Heydər Əliyev yoludur”

*Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Yolumuz Heydər Əliyev yoludur" devizi altında tədbir keçirilib.*



Tədbir iştirakçıları əvvəlcə "Heydər Əliyev muzey-lektoriyası"nı ziyarət edərək Ulu Öndərin Vətənə və xalqa həsr olunmuş mənalı ömrünün müxtəlif anlarını əks etdirən foto və sənədlərlə tanış olublar.

Tədbirdə ulu öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət himni ifa olunub.

Ümummilli liderimiz Heydər Əliyevin "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır" sözlərini tədbir iştirakçılarının diqqətinə çatdıran Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani bildirib ki, bu kəlamın əsasında zamanın fövqündə duran, bütün mənalı həyatını dövlətinin, xalqının, millətinin, Vətəninin tərəqqisinə, inkişafına və xoşbəxt gələcəyinə həsr etmiş Ulu Öndərimizin söz və əməl birliyi dayanır. “Gözlərimiz önündə dünyanı heyran qoyan böyük azərbaycanlının əzəmətli obrazı canlanır. Elə bir azərbaycanlının ki, sağlığında xalqımızın qəlbində özünə əbədi yuva qurub, ürəklərdə, arzularda heykəlləşib. İstər Vətəndə, istərsə də doğma diyarımızdan çox-çox uzaqlarda özünü bir an da olsun Azərbaycanımızdan ayrı hiss etməyib, qəlbi həmişə Azərbaycanla birgə döyünüb. Dahi şəxsiyyətin Xalq şairi Səməd Vurğunun "Azərbaycan" şerini söyləyərkən hansı kövrək hissləri keçirdiyinin hər birimiz şahidi olmuşuq.”



Qeyd olunub ki, Heydər Əliyev fenomeni təbiətin yüz ildə, min ildə bir dəfə yaratdığı şəxsiyyətlərdəndir. “O, Azərbaycanın hüdudlarına sığmayan dünya səviyyəli siyasətçi, uzaqgörən və istedadlı idarəçiliyi sayəsində respublikamızın inkişafını, bugünkü mövqeyə çatmasını təmin edən ölkə başçısı, bütün çətinliklərdən, ən ağır sınaqlardan üzüağ çıxmağı bacaran rəhbər kimi qiymətləndirilir. Azərbaycan xalqı xoşbəxtdir ki, onun taleyinə Heydər Əliyev kimi xilaskar düşüb. Məqsədi doğma Azərbaycan olan Heydər Əliyev 16 il öncə cismən bizi tərk etsə də, ürəklərdə yaşayır. Heydər Əliyev ideyaları xalqımızı daha parlaq gələcəyə aparır. Onun başa çatdıra bilmədiyi taleyüklü məsələləri, planları, işləri layiqli davamçısı, özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Prezidentimiz, Ali Baş Komandanımız İlham Əliyev və yüzlərlə, minlərlə Əliyevçilər uğurla həyata keçirirlər. Nə qədər ki Azərbaycan xalqı və dövləti var, Heydər Əliyev əbədi yaşayacaqdır.”

Xalqımızın böyük oğlu Heydər Əliyevin səsi ilə təqdim edilən "Azərbaycan" şerinin son misralarını bütün tədbir iştirakçıları ayağa qalxaraq birlikdə səsləndiriblər.

Xalq artisti, "Şöhrət" ordenli Niyaməddin Musayev Ulu Öndərə həsr etdiyi "El atası" mahnısını böyük şövqlə ifa edib, dahi rəhbərlə bağlı xatirələrini bölüşüb.

Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev müasir mütəşəkkil Azərbaycan Ordusunun yaranmasında Heydər Əliyevin müstəsna xidmətlərindən bəhs edərək nəzərə çatdırıb ki, Azərbaycan xalqı bu gün regionun ən güclü ordusuna malik olduğu üçün ilk növbədə, Ulu Öndərimizə minnətdardır. “Hələ 48 il öncə Heydər Əliyev böyük uzaqgörənliklə indiki C.Naxçıvanski adına Hərbi Liseyi yaratmaqla Azərbaycanın müstəqilliyini bərpa edəcəyini uzaqgörənliklə hiss edir və gələcək ordunun zabit korpusunun yaratmaq barədə planlar qururdu. Ümummilli Liderin sayəsində azərbaycanlı gənclər artıq ittifaqın bütün ali hərbi məktəblərində təmsil olunurdular. Əgər bu Hərbi lisey olmasaydı, bugünkü güclü, qüdrətli ordumuz haqqında danışmaq da əbəs idi. Xalqımızın haqlı olaraq "Heydər Əliyev məktəbi" adlandırdığı bu təhsil ocağının yüzlərlə, minlərlə məzunu indi müxtəlif qoşun növlərində peşəkar zabit kimi Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət edirlər. Onların 20 nəfərdən çoxu ali hərbi rütbələrə çatıb, "Azərbaycanın Milli Qəhrəmanı" adına yüksəliblər.”

General-mayor Rasim Əliyev vurğulayıb ki, bu gün ölkəmizdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da Heydər Əliyev siyasəti uğurla davam etdirilir. Ordunun maddi-texniki bazası gündən-günə möhkəmlənir, yeni texnikalar, zenit-raket kompleksləri, artilleriya qurğuları, aviasiya vasitələri, silah-sursat alınır, hərbi şəhərciklər inşa edilir, hərbi qulluqçuların mənzil-məişət şəraiti daha da yaxşılaşdırılır, onların sosial müdafiəsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. “2016-cı ilin Aprel döyüşləri zamanı Füzuli, Cəbrayıl, Ağdərə bölgəsində və ötən ilin may ayında Naxçıvan Muxtar Respublikasında həyata keçirilən döyüş əməliyyatlarında Azərbaycan əsgəri bir daha göstərdi ki, ordumuz istənilən döyüş tapşırığını yerinə yetirməyə hazır və qadirdir. Ali Baş Komandan cənab İlham Əliyevin də dəfələrlə dediyi kimi, Azərbaycan xalqı və dövləti heç vaxt işğalla barışmayacaq, öz ərazi bütövlüyünü nəyin bahasına olursa-olsun, bərpa edəcəkdir.”

"Azərbaycan" jurnalının baş redaktoru, Əməkdar incəsənət xadimi, tənqidçi, tərcüməçi İntiqam Qasımzadə çıxış edərək ulu öndər Heydər Əliyevin Azərbaycan mədəniyyətinin, ədəbiyyat və incəsənətinin inkişafındakı əvəzolunmaz xidmətlərindən bəhs edib, Heydər Əliyevlə bağlı xatirələrini bölüşən İ.Qasımzadə Azərbaycan Ordusunun uğurlarından qürur hissi keçirdiyini bildirərək deyib: "Müasir Azərbaycan Ordusu mənim də gözlərim önündə yaranıb, formalaşıb. Etiraf etməliyik ki, Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi və xahişi ilə yenidən ölkə rəhbərliyinə qayıdışı ilə çevik və mütəşəkkil ordu yarandı, ilk uğurlara nail olduq. Ordumuz Heydər Əliyevin simasında əsl Ali Baş Komandanını tanıdı. Mən də bütün vətəndaşlarımız kimi sevinirəm ki, bu gün güclü, qüdrətli ordumuz var. Mətin, qəhrəman əsgərlərimiz var və İlham Əliyev kimi müdrik və qətiyyətli baş sərkərdəmiz var. Ötən il keçirilən möhtəşəm hərbi paradlarda ordumuz öz gücünü bütün dünyaya göstərdi. Bu, dostlarımızı nə qədər sevindirdisə, düşmənlərimizi də bir o qədər məyus etdi. Əgər Qarabağ uğrunda yenidən döyüşlər başlayacaqsa, mən də Vətənin müsəlləh bir əsgəri kimi silaha sarılacağam".



Ümummilli lider Heydər Əliyevin imzaladığı Fərmanla iki dəfə "Azərbaycan Bayrağı" ordeninə layiq görülən ehtiyatda olan polkovnik Şair Ramaldanov Ulu Öndərin Ali Baş Komandanlığı ilə keçirilən uğurlu Horadiz əməliyyatı barədə ətraflı məlumat verib. Diqqətə çatdırıb ki, 1993-cü ilin dekabrından başlayaraq, 1994-cü il yanvarın 6-dək davam edən bu əməliyyat zaman Horadiz qəsəbəsi, Füzuli rayonunun 20 kəndi və Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi azad edildi. “Bu əməliyyat zamanı göstərdikləri şəxsi rəşadət və igidliyə görə 8 nəfər "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görüldü. Xeyli texnika, silah-sursat qənimət götürüldü. Şəxsi heyətin döyüş ruhu, qələbə əzmi daha da yüksəldi. Ordu quruculuğunda yeni bir mərhələnin əsası qoyuldu. Bütün bunlar yalnız Ulu Öndərin sayəsində mümkün oldu.”

Tədbir Xalq artistləri Gülyaz və Gülyanaq Məmmədova bacıları, eləcə də Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyətinin iştirakı ilə "Ürəklərdə, nəğmələrdə yaşayır Ulu Öndərimiz" adlı ədəbi-musiqili kompozisiya ilə başa çatıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Böyük Vətən müharibəsində həlak olanların xatirəsi yad edildi



Müdafiə Nazirliyinin və Yasamal rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin abidəsi önündə tədbir keçirildi.

Tədbirdə Yasamal rayon İcra Hakimiyyətinin başçısı Əziz Əzizov, Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi - Şəxsi Heyət Baş İdarəsi rəisinin müavini general-mayor Rasim Əliyev və xüsusi təyinatlı təhsil müəssisələrinin kursant və zabit heyəti, müharibə veteranları, qazilər, məktəblilər və Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin ailə üzvləri iştirak etdilər.

Əfsanəvi kəşfiyyatçı-partizan Mehdi Hüseynzadənin abidəsi önünə əklillər qoyulduqdan, tər qərənfillər düzüldükdən sonra Dövlət himni səsləndirildi.

Tədbirin sonunda müharibə veteranları ilə xatirə şəkli çəkildi.

* * *

Faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önündə təntənəli mərasim keçirildi.

Mərasimdə Müdafiə Nazirliyinin İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi rəisinin müavini polkovnik Aydın Əyyubov və bir qrup hərbi qulluqçu Şəhidlər xiyabanında qəhrəmanın abidəsini ziyarət edərək önünə gül dəstələri qoydular. Həzi Aslanovun timsalında Böyük Vətən müharibəsi iştirakçılarının və Azərbaycan torpaqlarının azadlığı və bütövlüyü uğrunda şəhid olanların xatirəsi böyük ehtiramla yad edildi.



İkinci Dünya müharibəsi illəri bəşəriyyət üçün ən ağır və dəhşətli illər olub. Faşizm ideologiyasının işğalçılıq siyasəti bütün dünyanı təhlükə altına atmışdı. Müharibə illərində xalqımızın zabit və əsgər oğulları döyüşlərdə, əli işə yatanlar arxa cəbhədə şücaət, qəhrəmanlıq və igidlik nümunələrini göstərib. Azərbaycanlı zabit və əsgərlərin qəhrəmanlıqları heç zaman unudulmayacaq. Onların keçdiyi döyüş yolu gənc nəslə vətənpərvər ruhda formalaşmağı, xalqımızın mənafeyini hər şeydən üstün tutmağı, Vətənin dar günündə harayına çatmağı öyrədir. Ümummilli lider Heydər Əliyev xalqın tələbi ilə Azərbaycanda siyasi hakimiyyətə qayıtdıqda sonra İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranlarımız hərtərəfli qayğı ilə əhatə olundular. Bu gün Ali Baş Komandan İlham Əliyev bu siyasəti uğurla davam etdirir, veteranların sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atılır.

* * *

Nərimanov rayonunda yerləşən "Qardaşlıq məzarlığı" Əbədi Xatirə Kompleksində Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 74 illiyi ilə əlaqədar təntənəli tədbir keçirildi.

Tədbirdə Milli Məclisin deputatları, MDB ölkələrinin ölkəmizdəki səfirləri, Nərimanov rayon İcra Hakimiyyətinin başçısı, akreditə olunmuş nümayəndələr, Böyük Vətən müharibəsi veteranları, hərbçilər, gənclər, rayon ictimaiyyəti və kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin, Böyük Vətən müharibəsində həlak olanların və torpaqlarımızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Sonra əllərində MDB dövlətlərinin bayraqlarını tutmuş hərbçilərin Böyük Vətən müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önündən fəxri keçidi oldu.

Tədbirdə çıxış edən Nərimanov rayon İcra Hakimiyyətinin başçısı Abdin Fərzəliyev Azərbaycan xalqının faşizm üzərində tarixi Qələbəyə böyük töhfə verdiyini, bu şanlı zəfərin əldə olunmasında çox böyük payı olan xalqımızın yüz minlərlə oğul və qızının müharibədə də iştirak etdiyini, onların təxminən yarısının döyüşlərdə həlak olduğunu bildirdi. Onu da qeyd etdi ki, dəhşətli müharibədə göstərdiyi igidliyə görə Azərbaycanın yüzdən çox vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görüldü, yüz mindən çox əsgər və zabiti müxtəlif orden və medallarla təltif edildi.

Natiq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə böyük diqqət və qayğı ilə yanaşıldığını, bu dahi şəxsiyyətin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra ölkəmizdə bu siyasətin daha əhatəli həyata keçirildiyini iştirakçıların diqqətinə çatdırdı.

Digər çıxış edənlər faşizm üzərində Qələbənin 74 illiyi ərəfəsində veteranlara göstərilən dövlət qayğısını, onların ölkəmizin ictimai-siyasi həyatında, xüsusən gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsində fəal iştirak etdiyini qeyd etdilər.

Veteranlar göstərilən yüksək diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Sonda tədbir iştirakçıları 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidənin önünə əklil qoydular, gül dəstələri düzərək, kompleksdə dəfn olunanların məzarlarını ziyarət etdilər.

* * *

9 May Qələbə Günü respublikamızda həmişə böyük coşqu ilə qeyd olunur. Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun büstü önündə keçirilən tədbir qəhrəmanlığı illərdi qürurla xatırlanan qəhrəmanın timsalında döyüşlərdə həlak olanların hamısına ehtiram tədbiri kimi izlənildi. Hamı bu qələbəyi bu günə, bu qəhrəmana ehtiram bildi.

Tədbiri Hərbi Dəniz Qüvvələrinin zabiti, 3-cü dərəcəli kapitan Vüsal Rəsulov açaraq Sovet İttifaqı Qəhrəmanı Qafur Məmmədovun həyatından, qəhrəmanlığından, qəhrəmanlığının mahiyyətindən danışdı, belə ömürlərin milli-mənəvi dəyəriylə bəşəri ehtiram ünvanı olduğunu qeyd etdi.

Tədbirdə Böyük Vətən müharibəsi veteranları, ictimaiyyətin nümayəndələri iştirak etdilər.

* * *



Nəsimi rayonunda yerləşən əfsanəvi kəşfiyyatçı Sovet İttifaqı Qəhrəmanı Rixard Zorgenin adını daşıyan parkda faşizm üzərində Qələbənin 74-cü ildönümünə həsr olunmuş tədbir keçirildi. Rixard Zorgenin abidəsi önündə keçirilən tədbirdə Müdafiə Nazirliyi və Nəsimi rayon İcra Hakimiyyətinin nümayəndələri, müharibə veteranları və şəhər sakinləri iştirak edirdilər.

Polkovnik Həbib Məmmədov faşizm üzərində qazanılan qələbədə həmyerlilərimizin əvəzsiz rolu olduğunu vurğulayaraq bildirdi ki, Rixard Zorgenin də rolu olub. Mərd kəşfiyyatçının həyat yolundan və kəşfiyyatçı keyfiyyətlərindən danışan zabit bildirdi ki, Rixard Zorgenin ən mühüm fəaliyyətlərindən biri Yaponiyada əməliyyat xidmətində olarkən Adolf Hitlerin başlaya biləcəyi hücum barədə SSRİ rəhbərliyini əvvəlcədən məlumatlandırması idi. Məşhur kəşfiyyatçının xatirəsinin əbədiləşdirilməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətləri olduğunu bildirən polkovnik tədbirin keçirildiyi Zorge parkının məhz Ümummilli Liderin təşəbbüsü ilə 1981-ci ildə salındığını da diqqətə çatdırdı.

Nəsimi rayon İcra Hakimiyyətinin nümayəndələri Namiq Muradov, Vaqif Zeynalov və Nuru Əhmədov tədbir iştirakçılarını faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə təbrik etdilər.

Sonda abidə önünə gül dəstələri qoyan tədbir iştirakçıları Rixard Zorgenin timsalında İkinci Dünya müharibəsində misilsiz şücaətlər göstərmiş qəhrəman həmvətənlərimizin xatirəsini ehtiramla yad etdilər. Tədbir xatirə şəkilləri çəkildikdən sonra başa çatdı.

* * *

Sabunçu rayonunda yerləşən "Qardaşlıq məzarlığı"nda 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 74 illiyi münasibəti ilə təntənəli mərasim keçirildi.

Tədbirdə Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, Milli Məclisin deputatları, Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin zabit və kursantları, rayon ictimaiyyətinin nümayəndələri iştirak etdilər.

1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinə ucaldılmış abidə kompleksinin önünə əklil qoyulduqdan sonra çıxış edən Sabunçu rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev müharibə veteranlarını təbrik etdi və onlara uğurlar arzuladı. İkinci Dünya müharibəsini bəşəriyyət üçün dəhşətli, faciəli fəlakətlər dövrü kimi qiymətləndirdi. İcra başçısı Azərbaycan xalqının da bu böyük qələbənin əldə edilməsində əlindən gələni əsirgəmədiyini bildirdi.

Ümummilli lider Heydər Əliyevin veteranlara diqqət və qayğısından danışan A.Vəliyev, bu ənənənin Prezident İlham Əliyev tərəfindən də davam etdirildiyini diqqətə çatdırdı.

Digər çıxış edənlər də həmyerlilərimizin mərdliyindən, cəsurluğundan, qələbənin qazanılmasındakı fədakarlıqlarından danışdılar.

Çıxışlardan sonra tədbir iştirakçıları məzarları ziyarət etdilər.

**"Azərbaycan Ordusu"**

# Naxçıvan Qarnizonunda təlim-metodiki toplantı keçirilib





*Naxçıvan Qarnizonunda tabor, divizion komandirləri və onların müavinləri ilə növbəti təlim-metodiki toplantı keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, toplantıya cəlb edilmiş zabitlərin döyüş hazırlığı üzrə nəzəri bilikləri, praktiki vərdişləri, gecə şəraitində sürücülük və atəş bacarıqları yoxlanılıb.

Müxtəlif ixtisaslar üzrə məqbullar götürülən zaman zabitlər yüksək nəticə göstəriblər. Dörd gün davam edən toplantının sonunda tabor, divizion komandirləri və onların müavinlərinə döyüş atışlı tabor taktiki təliminin planlanması, hazırlanması, keçirilməsi, təlim zamanı bölmələrin və atəşin idarə edilməsi metodikası praktiki olaraq göstərilib.

Təlimdə yaranmış əməliyyat şəraitinə əsasən, motoatıcı taborun düşmənlə bilavasitə təmas vəziyyətindən hücuma keçərək şərti düşməni məhv etməsi praktiki yerinə yetirilib. Piyadaların döyüş maşınlarının, top və minaatanların, tank əleyhinə qurğuların, müasir idarəetmə vasitələrinin də cəlb edildiyi təlimdə qarşıya qoyulmuş məqsədə nail olunub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Hərbi topoqraf və hidroqrafların elmi-praktik konfransı keçirilib

2019-cu tədris ilinin hazırlıq planına əsasən, hərbi topoqraf və hidroqrafların "Azərbaycan Ordusunda vahid koordinat sisteminə keçidin təmin edilməsi və coğrafi informasiya sistemlərinin tətbiqi perspektivləri" mövzusunda elmi-praktik konfrans keçirilib.

Müdafiə Nazirliyi Naviqasiya və Kartoqrafiya İdarəsi tərəfindən təşkil edilən konfransda Azərbaycan Ordusunun silahlanmasına qəbul edilmiş müasir silah və hərbi texnikanın strateji və taktiki xüsusiyyətlərinin əhəmiyyəti və onların idarəetmə sistemlərində uğurla istifadə edilən rəqəmli, vektor xəritələrin və coğrafi informasiya sistemlərinin effektivliyi qeyd olunub.

Tədbirdə fotoqrafik işlər və geodeziya ölçmələri zamanı yeni texnologiyaların istifadəsi, müxtəlif proyeksiyalı və koordinat sistemli xəritələrin hazırlanması prosesində müasir proqram təminatının tətbiqi və vahid koordinat sisteminə keçid barədə brifinqlər təqdim olunub.

## Silah və hərbi texnika yay mövsümündə istismar rejiminə keçirilir

2019-cu ilin döyüş hazırlığı planına əsasən, Azərbaycan Ordusunun bütün hərbi hissə və bölmələrində silah, döyüş və xüsusi texnikanın istismarının yay mövsümünə keçirilməsi prosesi aparılır.

Hərbi hissələrdə fəaliyyət göstərən texniki xidmət məntəqələrində döyüş və xüsusi texnikanın yanacaq-sürtkü materiallarının dəyişdirilməsi, həmçinin onlara planlı şəkildə mövsümi qulluq göstərilməsi həyata keçirilir.

Qeyd edək ki, silah və texnikanın yay dövründə fasiləsiz və dayanıqlı istismarı hərbi hissələrin döyüş qabiliyyətinin artırılmasına, eləcə də döyüşə hazırlığın yüksək səviyyədə saxlanılmasına xidmət edir.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 may 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 28 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Qaralar kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Xocavənd rayonunun Kuropatkino, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Faşizm üzərində Qələbənin 74-cü ildönümü münasibəti ilə hərbi orkestrlərin nümunəvi çıxışları olub

*Faşizm üzərində Böyük Qələbənin 74-cü ildönümü münasibəti ilə Dənizkənarı Milli Parkda, Əhmədli qəsəbəsi Ukrayna dairəsi yaxınlığındakı Heydər Əliyev, Zərifə Əliyeva, Yasamal (Lider TV yaxınlığında) parklarında və Fəvvarələr meydanında hərbi orkestrlərin nümunəvi çıxışları təşkil olundu. Şəhərimizin sakinləri, paytaxtımıza gələn qonaqlar hərbi vətənpərvərlik, klassik mövzuda səsləndirilən musiqiləri və 9 May Qələbə Gününə həsr olunmuş mahnıları ayaq saxlayıb böyük maraqla dinləyirdilər. Hərbi orkestrlərin çıxışları parklarda istirahət edən insanlara xoş ovqat bəxş edirdi. Biz bütün bunları onların üzlərində, simalarında parlayan xoş təbəssümlərdən hiss edirdik.*



Fəvvarələr meydanında musiqiləri maraqla, böyük həvəslə dinləyən bir neçə şəhər sakininin və paytaxtımızın qonaqlarının 9 May Qələbə Günü ilə bağlı fikirlərini öyrənmək üçün onlara yaxınlaşıram.

Özünü təqdim edən Anastasiya Kononovanın babası İkinci Dünya müharibəsinin iştirakçısı olub. Evlərində hələ kiçik yaşlarından eşitdiyi müharibə xatirələri yaddaşının dərinliyinə hopub. Hər il 9 May Qələbə Günü evlərində bayram olduğunu deyən kinorejissor Anastasiya dedi ki, müharibə mövzusunda bir neçə filmin həm ssenari müəllifi, həm də rejissorudur. "Böyük Vətən müharibəsi mövzusu mənə çox doğmadır. Hətta mənim təşkilatçılığımla 10 şəhər məktəbi arasında babaları Böyük Vətən müharibəsi veteranları olan şagirdlərin esse müsabiqəsi keçirildi. Bu gün qaliblər müəyyənləşdi. İkinci yeri gördüyünüz (o yaxınlıqdakı oturacaqda əyləşən oğlanı göstərir) o məktəbli oğlan - 8-ci sinif şagirdi Çingiz Sinayev tutdu. Çox gözəl məzmunlu, əhatəli esse yazmışdı. Ona hədiyyələr təqdim edildi. Azərbaycan bizim Vətənimizdir. O gün olsun ki, Vətənimizdə də müharibə başa çatsın. Biz Qələbə bayramımızı daha möhtəşəm keçirək."

Sonra Cənubi Azərbaycanın Ərdəbil əyalətindən paytaxtımıza qonaq gələn əslən azərbaycanlı olan Həmid Səttar, həyat yoldaşı Sima Nur və qızları Məhsa Səttarla söhbətimi davam etdirirəm. Onlar hərbi vətənpərvərlik mövzusunda musiqiləri, klassik musiqiləri çox sevdiklərini dedilər. "Bura da bizim Vətənimizdir. Biz tez-tez doğma Azərbaycanımıza gəlirik. Evimizdə də hər zaman belə mahnılara qulaq asırıq. İşğal olunmuş torpaqlar azad olunsun, belə Qələbə bayramları keçirilsin və onda da ailəmlə gəlib bu bayramlarda iştirak edək."

Qarabağ qazisi Yaqub Cəfərov da hərbi orkestrlərin çıxışlarını maraqla dinlədiyini dedi. "Artıq bir neçə ildir ki, hərbi orkestrlər 9 May Qələbə Günündə maraqlı musiqilər səsləndirir. Mən görürəm ki, insanlar necə diqqətlə mahnılara qulaq asır, istirahət edir. Eyni zamanda, bu musiqilər gənclərimizə vətənpərvərlik hissləri aşılayır. 1941-1945-ci illərdə həlak olan babalarımızın ruhu da şad olur ki, biz onların qəhrəmanlıqlarını unutmuruq. Onların xatirəsini bu gün də yad edirik."

İdmançı Nurlan Salmanov Gəncədən gəldiyini dedi. Öyrənirəm ki, 2015-2016-cı illərdə "N" hərbi hissəsində xidmət edib. Aprel döyüşlərinin iştirakçısıdır. "Hərbi vətənpərvərlik mahnılarını dinləməkdən xüsusi zövq alıram. Klassik mahnıları da sevirəm. Hərbi orkestrlərin çıxışları biz gənclərdə yüksək vətənpərvərlik hissləri yaradır. Yaxşı olar ki, ildə bir dəfə yox, bütün dövlət bayramlarında belə çıxışlar təşkil olunsun. Mən torpaqlarımızın azadlığı uğrunda hər zaman döyüşə hazıram. Arzu edirəm ki, tezliklə torpaqlarımız erməni işğalçılarının tapdağından azad edilsin, Qələbə günümüzü təntənə ilə Azadlıq meydanında qeyd edək."

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş növbəti tədbir keçirilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müvafiq sərəncamının icrasının təmin edilməsi məqsədilə Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunda İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan növbəti tədbir keçirilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, hərbi hissənin şəxsi heyəti, Füzuli Dram Teatrının əməkdaşları və digər qonaqlar iştirak ediblər.

Azərbaycan xalqının ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunan tədbirdə İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin əməkdaşları, dövlət qulluqçuları Zümrüd Səmədova və Sairə Rəsulova çıxış edərək dahi şairin yaradıcılığından danışıb, onun Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus yer tutduğunu vurğulayıblar.

Tədbirdə Füzuli Dram Teatrının bədii kollektivi tərəfindən Nəsiminin qəzəlləri əsasında səhnəciklər nümayiş etdirilib.

## “Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüququn prinsipləri əsasında həll edilməlidir”

Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövqeyimiz dəyişməzdir. Bu münaqişəsinin hələ də həll edilməmiş qalması, işğalın davam etməsi təkcə münaqişə tərəfləri üçün deyil, bütövlükdə region üçün təhlükəlidir.

AZƏRTAC xəbər verir ki, bu sözləri İtaliya Senatının üzvü Sefano Luçidi deyib.

Senator əlavə edib ki, Dağlıq Qarabağ münaqişəsi tez bir zamanda sülh yolu ilə, beynəlxalq hüququn prinsiplərinə uyğun həll edilməlidir.

*“Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır”*

# “Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri” müsabiqəsi

*Ordunun gücü döyüş hazırlığı ilə mənəvi-psixoloji hazırlığın vəhdəti deməkdir. Bu baxımdan zabitlər şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində konkret tapşırıqlar yerinə yetirir, onlara milli-mənəvi dəyərlərimizə daha sıx bağlılıq aşılayırlar. Bu məqsədlə hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıq işinin təkmilləşdirilməsi, onlarda yüksək mənəvi-döyüş və psixoloji keyfiyyətlərin formalaşması, hərbi intizamın möhkəmləndirilməsi və s. məqsədilə ictimai-siyasi hazırlıq dərsləri keçirilir.*



Hər bir hərbi qulluqçu xidmət etdiyi hərbi hissədə yüksək döyüş qabiliyyətinin saxlanılması, döyüş hazırlığının yüksəldilməsi, hissə və bölmənin tapşırıqlarının müvəffəqiyyətli həlli üçün öz vəzifə borclarını məsuliyyətlə yerinə yetirir. İctimai-siyasi hazırlıq məşğələsində savadlı və peşəkar zabit heyəti təhsil müddətində mənimsədikləri hərbi bilik və bacarıqlarını şəxsi heyətə öyrədir. Zabitlər, həmçinin belə dərslər vasitəsilə əsgərlərdə döyüş və mənəvi-psixoloji ruhu yüksəldir, onlara qələbə ruhu aşılayırlar.

Azərbaycan Ordusunun 2019-cu il üçün hazırlıq planına əsasən, qoşun (qüvvə) növləri, birlik, birləşmə və əlahiddə hərbi hissələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi, ictimai-siyasi hazırlıq dərslərinin təkmilləşdirilməsi, bu sahədə əldə edilmiş nailiyyətlərin təbliğ edilməsi, bölmələr arasında yarışma ruhunun və rəqabətin gücləndirilməsi məqsədilə "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsi keçirilib. Müsabiqənin final mərhələsinə Azərbaycan Ordusunun qoşun (qüvvə) növləri, birlik və xüsusi təyinatlı təhsil müəssisələrindən ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbərləri təqdim edilib.

Müsabiqənin yekununda birinci yerə leytenant Nadir Tahir oğlu Quliyev, ikinci yerə leytenant Nurlan Əbülfəz oğlu Mahmudov, üçüncü yerə isə leytenant Elməddin Məhyəddin oğlu Vəlicanov və kapitan Rüfət Qüdrət oğlu Quliyev layiq görülüblər.

Müdafiə nazirinin müavini - Şəxsi Heyət Baş İdarəsi rəisinin əmri ilə "Ən yaxşı ictimai-siyasi hazırlıq dərsinin qrup rəhbəri" müsabiqəsində qalib gələn hərbi qulluqçular müvafiq qaydada həvəsləndiriliblər.

Leytenant Nadir Quliyevə fəxri fərman təqdim edilib.

Kapitan Rüfət Quliyevə, leytenantlar Nurlan Mahmudova və Elməddin Vəlicanova təşəkkür elan olunub.

**Baş leytenant
Məhəmməd NƏSİRLİ,
"Azərbaycan Ordusu"**

# “Azərbaycan Ordusunun tarixi” kitabının təqdimatı keçirildi




Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzində keçirilən "Azərbaycan Ordusunun tarixi" kitabının təqdimat mərasimində xüsusi təyinatlı təhsil müəssisələrinin, hərbi hissənin şəxsi heyəti və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

H.Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin nümayəndəsi Gülxar Məmmədova kitabın Azərbaycan hərb tarixinə və onun şərəfli ordusunun keçdiyi qəhrəmanlıq tarixinə həsr olunduğunu vurğulayaraq bildirdi ki, arxiv sənədləri əsasında yazılmış "Azərbaycan Ordusunun tarixi" kitabı beş cilddən ibarətdir. "Güclü millətlər bu gün öz dövlətini qurub, dövlətçiliyini qoruyub saxlamaq iqtidarındadır. Bir millətin var olması üçün onun ərazisi, dili və mədəniyyəti olmaqla yanaşı, güclü dövlətin nizami ordusu olmalıdır. Necə deyərlər, ordu dövlətin qarantıdır. Biz çox xoşbəxt millətik ki, bu günə qədər tarix səhnəsində mövcud olmuşuq, öz milliliyimizi bu günə qədər yaşada bilmişik. Öz tarixi köklərinə, milliliyinə sadiq olan, adət-ənənələrini yaşadan bir millət olaraq tanınırıq".

Kitabın müəllifi tarix elmləri doktoru, ehtiyatda olan polkovnik Mehman Süleymanov çıxış edərək bildirdi ki, tarixdə siyasətçilərin və hərbçilərin rolu böyükdur. "Onların tarixdə necə qalmasında bu tarix yazanların da üzərinə məsuliyyət düşür. Salnaməçilər necə yazırsa, tarixi həqiqət gələcək nəsillərə o cür çatır. Deməli, tarixi yazan çox məsuliyyətli və önəmli iş aparır. Tarix döyüş meydanlarında tökülən qanlar, dağılan ölkələr, şəhərlər, kəndlər üzərində yaranır. Ancaq balaca, zərif kitabların solğun vərəqlərində əsirlərdən bu günə çatır, bu gündən sabaha gedir. Mən də bu kitabı hazırlayarkən çalışdım ki, gələcək nəsillərə ordumuzun tarixini doğun, həqiqi şəkildə çatdırım. Ümid edirəm ki, "Azərbaycan Ordusunun tarixi" kitabı yeni nəslin təlim-tərbiyəsində, eləcə də gənc nəsildə vətənpərvərliyin formalaşmasında mühüm rol oynayacaq. Kitabın ölkəmizin tanınması baxımından informasiya müharibəsi şəraitində mühüm rolu da olacaqdır".

Tədbir Həzi Aslanov adına Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin konsert proqramı ilə tamamlandı.

**Baş leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

Mayor Lətifova Şahnaz Xanoğlan qızına verilmiş zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

---

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Göyüşov Elnur Fazil oğluna 2016-cı ildə verilmiş vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
leytenant
Samir HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 393
Nüsxə 3950